# Özbək dramaturgiyasına baxış

**Mehman Həsənli**
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mehman.hesen@gmail.com
https://orcid.org/0000-0003-3036-2646

**Annotasiya**. XX əsrin əvvəllərində türk dünyasının mühüm mərkəzlərindən biri olan Özbəkistanda maarifçi cədidçilik hərəkatı geniş vüsət almışdır. Bu prosesin ən fəal iştirakçılarından biri Mahmudxoca Behbudi olmuşdur. Mahmudxoca Behbudi özbək cədidizminin banilərindən biri hesab olunmuş, ölkəsində mətbuatın inkişafında müstəsna xidmətlər göstərmişdir. Məqalədə XX əsrin əvvələrində Özbəkistanda ictimai-mədəni mühit araşdırmaya cəlb edilmişdir. İlk özbək dramı olan Mahmudxoca Behbudinin "Pədərkuş" (Ata qatili") pyesinin ideya-məzmun xüsusiyyətləri tədqiq edilmişdir.
**Açar sözlər:** Mahmudxoca Behbudi, özbək dramaturgiyası, cədidizm, teatr, maarifçilik

http://dx.doi.org/10.29228/edu.169
**Məqaləyə istinad:** Həsənli M. (2020) *Özbək dramaturgiyasına baxış.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 246-250
**Məqalə tarixçəsi:** göndərilib – 16.03.2020; qəbul edilib – 24.03.2020

# A view to the Uzbek dramaturgy

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: mehman.hesen@gmail.com
https://orcid.org/0000-0003-3036-2646

**Abstract.** One of the significant centres of Turkic world in the early 20$^{th}$ century that got a wide scope in Uzbekistan was Jadidism movement. Mahmudkhoja Behbudi was one of the active representatives of this process. Mahmudkhoja Behbudi considered as a founder of Uzbek Jadidism and had great services in the development of press in his country. In the article social-cultural environment in Uzbekistan at the beginning of the 20$^{th}$ century has been studied. Idea-content features of the drama "Pederkush" ("Father Killer") by Mahmudkhoja Behbudi which is the first Uzbek drama, has been researched.
**Keywords:** Mahmudhoja Behbudi, Uzbek dramaturgy, Jadidizm, theatre, enlightenment

http://dx.doi.org/10.29228/edu.169
**To cite this article:** Hasanli M. (2020) *A view to the Uzbek dramaturgy.* «Comparative Literature Studies», Issue I, pp. 246-250
**Article history:** received – 16.03.2020; accepted – 24.03.2020

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində dünyada baş verən hadisələr Türküstanın ictimai-mədəni həyatına da təsir göstərmişdir. 1904-cü ildə başlanan rus-yapon müharibəsi və Rusiyanın məğlubiyyəti, 1905-ci ildə imperiya əleyhinə etiraz dalğasının başlanması və bunların nəticəsi olaraq, Çar II Nikolayın 17 Oktyabr Manifesti ilə tabe millətlərə söz, vicdan və mətbuat azadlığının verilməsi, Birinci Dünya müharibəsi və Türküstanda imperiya əleyhinə başlanan milli hərəkat, 1917-ci il Fevral və Oktyabr inqilabları, nəhayət, bu ilin 27 noyabrında Türküstan Muxtariyyatının elan olunması və daha sonra bolşeviklər tərəfindən ləğv olunması bu dövr üçün mühüm əhəmiyyət kəsb edən hadisələrdən idi. XX əsr boyu özbək ədəbiyyatında sadaladığımız hadisələrin əks-sədasını duymaq mümkündür. Ümumilikdə, XX əsrin əvvəlləri türk xalqlarının həyatında mühüm tarixi mərhələ kimi səciyyələnmişdir. Bu dövrdə rus işğalında olan Qafqaz, Türküstan və Volqaboyu türklərində eyni məzmun kəsb edən fikir axınları meydana çıxmışdır.

## Əsas hissə / *Main part*

XX əsrin ilk illərindən başlayaraq, Türküstanda cədid hərəkatı geniş yayılmağa başlamışdır. Cədidizm "üsuli-cədid" (yeniləşmə) məktəblərinin adından götürülmüş və daha sonra türk xalqlarını əhatə edən genişmiqyaslı ictimai, siyasi və mədəni hərəkata çevrilmişdir. Cədidizmin yaranma dövrü ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri mövcuddur. Məsələn, tatar cədidizminin tədqiqatçılarından biri – Damir İsxakov (və bir sıra başqa tatar tədqiqatçılar) Tatarıstanda cədidizmin XVIII əsrdən yarandığını əsaslandırmağa çalışmışlar. İsxakov bu fikrini Rusiyanın Tatarıstanı daha əvvəl işğal etdiyi ilə əlaqələndirmişdir. Hətta cədidizmin Əlişir Nəvai ilə başladığını iddia edən tədqiqatçılar da vardır. Buna baxmayaraq, əksər mütəxəssislər hərəkatın XIX əsrin ikinci yarısında yarandığını qəbul etmişlər. Cədid ideyalarının yayılmasında ədəbiyyat mühüm rol oynamışdır. Təsadüfi deyil ki, bir çox tədqiqatçılar özbək ədəbiyyatının inkişaf tarixini iki dövrə bölürlər:

1. Cağatay dövrü
2. Cədid dövrü

Bu bölgü özlüyündə cədidizmin özbək bədii düşüncəsində oynadığı mühüm rolu ifadə etməkdədir. XX əsrin əvvəllərindən etibarən, Türküstanın həyatında başlıca hərəkata çevrilən cədidizm özünün ən mükəmməl ifadə formasını ədəbiyyatda tapdı. İlk əvvəl "üsuli-cədid" məktəblərinin yaranması ilə başlayan hərəkat, daha sonra milli mətbuatın, milli teatrın yaranması ilə yeni mərhələyə yüksəldi.

XX əsrin əvvəllərindən başlayaraq cədid hərəkatının Türküstanda geniş bir hərəkata çevrilməsində əhəmiyyətli rol oynayan şəxsiyyətlərdən biri də Mahmudxoca Behbudi olmuşdur. Özbək ədəbiyyatından bəhs edən bir çox müəlliflər onu Türküstan cədidizminin banisi hesab etmişlər. Hələ əsrin əvvəllərində Behbudinin təşəbbüsü ilə Səmərqənddə "üsuli-cədid" məktəbləri fəaliyyətə başlamışdır. Yeni məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunmuş və Behbudi həmin məktəblər üçün bir neçə dərslik yazmışdır. Onun "Risaleyi əsbabi savad", "Risaleyi coğrafiyayi ümumi", "Risaleyi coğrafiyayi Rusiy", "Kitab-ül ətfal", "Əməliyati İslam", "Tarixi İslam" dərslikləri ötən əsrin əvvəllərində çap olunmuşdur.

1905-ci ildən Türküstanda geniş mətbuat şəbəkəsinin qurulmasında Behbudi yaxından iştirak etmiş, bir sıra qəzet və jurnalların təsisçisi olmuşdur. Türküstanda mərhələli şəkildə inkişaf edən maarifçi cədid hərəkatı məktəb və mətbuatdan sonra teatrın yaranma zərurətini meydana çıxarmışdır.

Əslində, XIX əsrin 60-70-ci illərində Türküstanda teatr fəaliyyətə başlamışdı. Əsasən rus və Qərb müəlliflərinin əsərlərinin rus dilində nümayiş olunduğu bu cür teatr tamaşaları kütləvi xarakter daşımamışdır. Bu tipli tamaşalarda hədəf olaraq yüksək elita – bəylər, xanlar və onların yerini tutacaq övladları seçilmişdir. Yerli elitanı bu cür "mədəni" fəaliyyətə cəlb etməklə imperiya rəhbərliyi öz maraqlarına cavab verən və yerli idarəetmədə uğurlu ola biləcək kadrlar hazırlamağı qarşılarına

məqsəd qoymuşdular. Bu isə milli teatrın yaranması demək deyildi. Çünki bunun üçün hələ milli hərəkat kifayət qədər formalaşmamışdı.

Türküstanda dramaturgiyanın və teatrın yaranmasında Azərbaycan və tatar maarifçilərinin rolu əvəzsizdir. Tatar rejissorları hələ 1904-cü ildə Namiq Kamalın pyesini Türküstanda tamaşaya qoymuşdular [1].

Azərbaycandan gələn teatr qrupları 1911-ci ildən etibarən Mirzə Fətəli Axundzadənin, Nəriman Nərimanovun və digər tanınmış ədiblərimizin əsərlərini Türküstanın ayrı-ayrı vilayətlərində səhnədə nümayiş etdirmişlər. Özbək dramaturgiyasından bəhs edən tədqiqatçılar ilk dram əsəri olan "Pədərkuş"un səhnəyə qoyulmasında Azərbaycandan gələn rejissor Əliəsgər Əliəsgərovun xidmətlərini qeyd etmişlər. Bu barədə Ayna dərgisinin 14-cü sayında yazılmışdır: "Namangen yaşlarıge ve muhterem Aliasgar efendige teşekkür kılınır. Semerkandda hem birinçi Türk tilinde koyulgen tiyatruge üç-tört sene ilgeri Aliasgar cenabları sebeb bolıb edi. Türkistanda Aliasgar efendini tiyatru koymagen şehri az kaldı ve kalganlarıge hem gayret etib koysa yahşı bolur" [1, s.24].

Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri 1916-cı ildə Daşkənddə şərqşünas Samoyloviçin rəhbərliyi ilə Əvlani tərəfindən Azərbaycan dilindən farscaya tərcümə olunaraq tamaşaya qoyulmuşdur. Tamaşa böyük marağa səbəb olmuşdur.

Müəllifin "milli faciə" adlandırdığı pyes 3 pərdə, 4 səhnədən ibarət "Pədərkuş" (Ata qatili) pyesi 1911-ci ildə yazılmışdır. Lakin senzura əsərin tamaşaya qoyulmasına icazə verməmişdir. Dramı senzuradan keçirmək üçün Behbudi əsəri Borodino savaşında Rusiyanın fransızlar üzərində qələbəsinin ildönümünə həsr etdiyini qeyd etmişdir. Pyes yalnız iki ildən sonra, 1913-cü ildə Tiflisdə çap olunmuşdur. Nəşr olunandan sonra pyesin səhnəyə qoyulması daha bir il ləngimişdir. Behbudi ortaya çıxan çətinliklərdən bəhs edərək yazmışdır: "Türküstanda bekar adam yoxdur ki, xalq üçün işləsin. Bekar kişi yoxdur ki, teatr səhnəsinə çıxıb "məsxərəbazlıq" etsin" [2, s.165].

Pyes ilk dəfə olaraq Səmərqənddə 1914-cü ilin yanvar ayının 15-də səhnədə nümayiş olunmuş və həmin gün professional özbək teatrının yaranış günü kimi tarixə yazılmışdır.

"Pədərkuş" növbəti dəfə 1914-cü ilin fevralında Əvlaninin "Turan" truppası tərəfindən Daşkənddə tamaşaya qoyuldu. Yerli mətbuat həmin günü "tarixi gün" adlandırdı. "Turan" truppası tamaşanı 1914-1916-cı illərdə Türküstanın ayrı-ayrı bölgələrində dəfələrlə nümayiş etdirdi. Əsər bir tərəfdən inqilab illərində milli təfəkkürün formalaşmasında mühüm rol oynadı, digər tərəfdən "Pədərkuş"la professional özbək teatr və dramaturgiyasının əsası qoyuldu. "Turan" truppasının üzvlərindən biri olan Samoyloviç tamaşa haqqında təəssüratlarından bəhs edərək yazırdı: "Türküstanda yeni ədəbiyyat meydana gəldi. Bu, məni çox xoş etdi.... Yeni ədəbiyyatın mərkəzi - Səmərqənd.... Öz qələmdaşlarının baş ilhamçısı Səmərqəndli müfti Mahmudxoca Behbudi oldu" [2, s.166].

Mahiyyət etibarilə eyni ictimai-sosial məsələlər, imperiyanın hakim olduğu coğrafiyada – həm Türküstan, həm də Qafqaz maarifçi ziyalılarının ideyalarında və mübarizə hədəflərində oxşarlıqlar vardır. Buna görə də Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin əsərləri ilə Əbdürrauf Fitrətin, Mahmudxoca Behbudinin əsərləri arasında ideya və məzmun baxımından yaxınlıqlar çoxdur. Azərbaycanda dramaturgiya Mirzə Fətəli Axundzadənin dram əsərləri XIX əsrin ortalarında yarandı. Behbudinin "Pədərkuş" əsəri isə 60 il sonra, cədidizm hərəkatının genişləndiyi bir vaxtda meydana çıxdı. "Pədərkuş" pyesi Mirzə Fətəli Axundzadənin dram ənənəsinin ideya-məzmun baxımından uğurlu davamıdır. Xalqı inkişafdan geri qoyan cəhalət hər iki ədibin yaradıcılığında əsas tənqid hədəfi kimi götürülmüşdür.

Çar imperiyası işğal etdiyi və əsasən türklərin yaşadığı coğrafiyada savadsız və asan idarə olunan cəmiyyət qurmaq niyyətində idi. Türküstan general-qubernatoru Kuropatkin məktublarının birində rəhbərliyə yazırdı: "Biz yerli xalqı, tərəqqidə, məktəbdə rus həyatından 50 il geridə tutduq" [3, s.49]. Kuropatkinin bu fikri Çar imperiyasının yerli xalqlara qarşı yürüdülən geriçi imperiya siyasətinin mahiyyətini açıqlamış olur. Eyni fikir rus rəhbərlərindən biri M.Muropiyev tərəfindən belə vurğulanmışdır: "Müsəlmanların təhsilində əsas məqsəd onları ruslaşdırmaqdır... İkinci prinsip isə İslamı pozmaqdır" [4, s.371].

Ümumilikdə türk xalqlarına yönələn bu tip siyasət maarifçilik hərəkatında oxşar motivlərin yaranmasına səbəb olmuşdur. Çar imperiyası işğal etdiyi torpaqlarda möhkəmlənmək üçün ilk növbədə xalq içində nüfuzu olan bəyləri və din xadimlərini aradan götürməyə başladı. Əvəzində bu vəzifələri pulla satmağa başladı ki, bu da sonradan Mirzə Cəlilin, Sabirin, Behbudinin əsərlərinin ifşa hədəfində məhz din xadimləri və geriçi siyasət yürüdən bəylərin olması ilə nəticələndi.

Türküstanda genişlənən cədid hərəkatının aparıcı nümayəndələri türk xalqının geri qalmasının əsas səbəbini təhsildə görürdülər. Çünki yüksək təhsil sistemi daha yüksək təfəkkürlü fərdlərin və onları birləşdirən cəmiyyətin mövcudluğu demək idi. Cədidçilər yeni və dünyəvi təhsil sisteminin tətbiqinə çalışırdılar. Bu baxımdan Behbudinin "Pədərkuş" dramı cədidçilərin təhsil haqqında olan baxışlarını əks etdirir. "Pədərkuş"da təsvir olunan Domulla və Ziyalı obrazları, xüsusilə də Domulla müəllifin mütərəqqi ideyalarının, o dövrdə fəal təbliğat aparan cədidçilərin ümumiləşdirilmiş obrazıdır. Onların Bəylə elm və təhsil haqqında söhbətləri əsərin əsas məğzini təşkil edir. Bəy Türküstanın yerli idarəçiliyinin tipik rəhbərlərindən biridir. Onun oğlu Daşmurad da dövrünün "elita"sına xas cahil və savadsız yeniyetmədir. Domullanın dili ilə Behbudi Qərbin inkişaf etmiş təhsil sistemindən danışır. Qafqazda, Volqaboyunda da yeni təhsil sisteminin formalaşdığını vurğulayır. Təhsilin inkişafına dair verilən bütün təklifləri Bəy qətiyyətlə rədd edir.

Əsərdə Domulla ilə Bəyin söhbəti təsvir olunur. Domulla, Bəyə dünyanın inkişafından, təhsilin zərurətindən bəhs edir. Qafqazda, Volqaboyunda artıq yeni inkişafla ayaqlaşmaq üçün atılan addımlardan danışır. Yeganə oğlu Daşmuradın oxumaq, təhsil almağının zəruri olduğunu bildirən Domullaya Bəy heç qulaq asmaq da istəmir. Onun fikrincə, var-dövlət olduğu halda, oxumağa gərək yoxdur. Eyni mövzu Bəyin Ziyalı ilə söhbətində davam edir. Ziyalı Bəydən kasıb uşaqların oxuması üçün kömək istəyir. Qeyri-türk, qeyri-müsəlman uşaqlarının elmdə, təhsildə irəli getdiyini və yerli əhalinin onlardan çox geri qaldığını ürək yanğısı ilə bildirir. Lakin Ziyalının yanıqlı nitqinin qarşılığında Bəyin xorultu səsi eşidilir. Ziyalı göz yaşlarını axıdaraq evi tərk edir və türküstanlıları Allaha tapşırır. Nəticədə isə cahilliyindən quldurların təsiri altına düşən Bəyin oğlu Daşmurad öz atasının evinə basqın edir və padarkuşa – ata qatilinə çevrilir. Daşmuradın Bəyi öldürməsi savadsızlığın məntiqi nəticəsi kimi, əxlaq və qanun pozğunluğuna səbəb olur.

Mahmudxoca Behbudi teatrı "İbrətnamə" adlandırırdı və milli təfəkkürün formalaşması üçün ən önəmli yol olduğunu vurğulayırdı. "Pədərkuş" həcm etibarilə kiçik də olsa, özbək milli düşüncəsinin, maarifçiliyinin inkişafında mühüm rol oynadı. Cədidizmin inkişaf mərhələsində meydana çıxan dramaturgiya və teatr özündən əvvəlki ideya və fikirləri ümumiləşdirərək gələcək inkişafa möhkəm özül hazırladı. Bu özülün baş memarlarından biri Mahmudxoca Behbudi oldu.

Cədidçilərin xalqa yaxınlaşmasına, maarifçi ideyalarının xalq içində kütləvi yayılmasında teatr mühüm vasitəyə çevrilmişdir. Behbudidən sonra Hacı Muinin "Bəy və Xidmətkar", Həkim Niyazinin "Zəhərli həyat", Abdulla Qədirinin "Bəxtsiz Kiyav", Abdulla Əvlaninin "Vəkillik asanmı?", Qulam Zəfərinin "Bəxtsiz şagird", Əbdülhəmid Çolpanın "Bəy", Əbdürrauf Fitrətin "Begican", "Mövludi-Şərif", "Xurşid bazarı", "Qara Xatun" və s. dram əsərləri meydana gəlmişdir.

Daha sonrakı illərdə özbək dramaturgiyasını Həkim Həimzadə Niyazi "Qəhrəman oğuz", "Fərqanə faciələri", "Muxtariyyət", "Şuranın üsyanı", "Çoban sevgisi", "Hücum" və başqa pyesləri ilə zənginləşdirmişdir. Onun xüsusilə, "Bəy və muzdur" dramı, "Maysaranın işi" komediyası və "Çadranın sirləri" faciəsini tədqiqatçılar yüksək qiymətləndirmişlər. O, həmçinin Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafında müstəsna xismətlər göstərmişdir. Professor Pənah Xəlilov H.H.Niyazinin fəaliyyəti haqqında yazır: "Həmzə Həkimzadə Niyazi arxivində saxlanan sənədlərin təsvirinə həsr olunmuş "Həmzə Həkimzadə Niyazi" kitabında elan və ya afişaları qalmış Azərbaycan tamaşalarından ikisinin adı çəkilir: "Ac həriflər", "Əvvəli hənək, axırı dəyənək" ...Niyazinin bizə gəlib çatan pyesləri ilə Azərbaycan dramaturqlarının əsərləri arasında bir doğmalıq, oxşarlıq və müştərəklik vardır. Bu cəhətdən Niyazini Nəriman Nərimanovla, Əbdürrəhim bəy Haqverdiyevlə, Cəfər Cabbarlı ilə müqayisəli öyrənmək üçün diqqətəlayiq material gözə çarpır" [5, s.189].

İkinci Dünya müharibəsi illərində Kamil Yaşenin "Aftab xanım", "Qəsbkarlara ölüm!", İzzət

Sultanın "Qartalın Pərvazı", Həmid Əlimcanın "Muqamma" pyesləri tarixi mövzuda uğurlu dram nümunələridir. Kamil Yaşen özbək dramaturgiyasının inkişafında mühüm xidmətlər göstərmiş və onun "Darmadağın", "General Rəhimov", "Namus və məhəbbət" pyeslərinin daxil olduğu kitab 1979-cu ildə Bakıda nəşr edilmişdir.

### Nəticə / *Conclusion*

XX əsrdə Azərbaycan-özbək ədəbi əlaqələrinin formalaşmasında dramaturgiya və teatr əvəzsiz rol oynamışdır. Əsrin əvvəllərində əsası qoyulan bu ənənə daha sonra sovet dövründə inkişaf edərək zənginləşmişdir. Azərbaycanda özbək, Özbəkistanda isə Azərbaycan dram əsərləri tərcümə olunmuş, teatrlarda nümayiş edilmişdir.

### Ədəbiyyat / *References*

1. Şühret R. Cedid Dramaturgiyası, Toşkent, 1997.
2. Milliy uyğonış davri Özbek adabiyatı, Toşkent: Manaviyat, 2004.
3. Fatma Açık. Özbek türk şairi, yazarı, dil bilimcisi ve düşünürü Abdurauf Fıtrat. "Kök" dergisi, sayı: 4, 2002.
4. Dilorom Alimova. Mustabid Tüzimnin Özbekistan Milli Baylıklarını Talaş Siyaseti: Tarih şahidliği ve sabakları. Toşkent: Şark, 2000.
5. Pənah Xəlilov. Həmzə Həkimzadə Niyazi və Azərbaycan ədəbiyyatı. Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr. Bakı, Elm, 1985, 279 s.
6. Almaz Ülvi. Azərbaycan-özbək ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, "Qartal", 2008, 326 s.

## Вид на узбекскую драматургию

**Мехман Гасанлы**
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: mehman.hesen@gmail.com

**Резюме.** Одним из значительных центров тюркского мира начала XX века, который получил широкое распространение в Узбекистане, было движение джадидизма. Махмудходжа Бехбуди был одним из активных представителей этого процесса. Махмудходжа Бехбуди считается основоположником узбекского джадидизма и оказал большую помощь в развитии прессы в своей стране. В статье исследована социокультурная среда в Узбекистане в начале XX века. Идео-контентные особенности драмы «Педеркуш» («Отец-убийца») Махмудходжи Бехбуди, первой узбекской драмы, были исследованы.
**Ключевые слова:** Махмудходжа Бехбуди, узбекская драма, джадидизм, театр, просвещение